# Qarabağda güc və söz sahibi Azərbaycandır

## Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsinin açılması təhlükəsiz hərəkəti təmin edəcək

Aprelin 23-də Azərbaycan Hayastanla şərti sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında nəzarətin təmin edilməsi məqsədilə sərhəd nəzarət-buraxılış məntəqəsi qurub.





2020-ci il üçtərəfli Bəyanatının şərtlərinə əsasən, Laçın-Xankəndi yolu humanitar məqsədlər üçün nəzərdə tutulsa da, Hayastan iki ildən çox müddətdə bu yoldan terrorçuların keçidi, silah və sursat, mina, təbii sərvətlərimizin qeyri-qanuni istismar edilərək daşınması üçün istifadə edib.

Son olaraq aprelin 22-də Azərbaycan Ordusunun hərbi yük maşını ermənilər tərəfindən basdırılmış 2021-ci il istehsalı olan minaya düşərək partlayıb və üç hərbi qulluqçumuz yaralanıb. Ümumilikdə müharibədən ötən dövrdə Hayastanın mina terroru nəticəsində 294 azərbaycanlı zərər görüb.

Aprelin 22-də Hayastana məxsus yük avtomobilləri ilə hərbi məqsədlər üçün iki yaşayış konteynerinin və hərbi avtomobillər konvoyunun Azərbaycan ərazisinə keçirildiyi və Hayastan tərəfindən Laçın-Xankəndi yolunun başlanğıcında ərazimizə ən yaxın məntəqədə hərbi yaşayış konteynerlərinin yerləşdirilməsi, hərbi infrastruktur qurmaq fəaliyyəti də müşahidə edilib. Əlbəttə ki, bu, üçtərəfli Bəyanata və beynəlxalq hüququn norma və prinsiplərinə ziddir.

Nəticədə Azərbaycan Laçın yolundan daşınmalara nəzarətin təmin edilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirib. Bütün bu təxribatlar nəzərə alınaraq, Laçın yolunun başlanğıcında sərhəd-nəzarət mexanizminin təsis edilməsi yoldan hərəkət üzrə şəffaflığı və təhlükəsizliyi təmin edəcək.

Beləliklə, üçtərəfli Bəyanat üzrə öhdəliklərə uyğun olaraq, Laçın yolundan vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə Azərbaycan tərəfindən təhlükəsizlik zəmanəti olan bu əlavə tədbir çərçivəsində Qarabağ bölgəmizdə yaşayan erməni sakinlərin bu nəzarət məntəqəsindən hər iki istiqamətdə şəffaf və nizamlanan keçidi üçün müvafiq şərait yaradılacaq.

### Tarixi hadisə, beynəlxalq uğur

Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qeyd edib ki, Ermənistanla sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında Azərbaycanın sərhəd-buraxılış məntəqəsinin qurulması tarixi hadisədir. Deputat əlavə edib ki, bu, çox böyük əhəmiyyəti olan işdir: "Bu hadisə Prezident İlham Əliyevin çox peşəkar, qətiyyətli və soyuqqanlı xarici və hərbi siyasətinin mühüm uğurudur. Ermənistan Qarabağda işğalçılıq siyasətinə Şuşanı və Laçını zəbt etməklə başlamışdı. Biz də Ermənistanın bu siyasətinə Şuşanı və Laçını azad etməklə, sərhədlərimizə tam nəzarəti bərpa etməklə son qoyduq".

Komitə sədri bildirib ki, beləliklə, "böyük Ermənistan", "Miatsum" ideyaları məhv edilib.

Qarabağın bütün kənd və şəhərlərində bayrağımızın dalğanalacağını vurğulayan deputat əlavə edib ki, bu, artıq zamanın tələbidir. "Bundan sonra bizə yalnız dövlətimizi daim güclü saxlamaq lazımdır. Düşmən daim düşmən olaraq qalacaq. Zəifliədiyimiz anlarda zərbə endirəcək. Millət, dövlət məsələlərində hər birimiz vahid mövqedən çıxış etməli, milli dövlətçiliyin təməl yolu olan Heydər Əliyev yolundan çıxmamalıyıq", - deyə Tahir Mirkişili qeyd edib.

### Azərbaycan qanunsuz silah-sursatın daşınmasının qarşısını almaq iqtidarındadır

Milli Məclisin deputatı Arzu Nağıyev bildirib ki, Azərbaycan sərhəd qoşunlarının Laçın-Xankəndi yolunun Hayastanla sərhəd olan nöqtəsində nəzarət-buraxılış məntəqəsinin açılması çox mühüm əhəmiyyət kəsb edən tarixi məsələdir.

Deputat qeyd edib ki, 1988-ci ildən başlayaraq erməni təcavüzü, təxribatı nəticəsində Azərbaycanın Qarabağ ərazisinə müxtəlif istiqamətlərdən silah və sursatın daşınmasında, hərbi birləşmələrin gətirilməsində məhz bu yoldan istifadə olunub. 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən, Azərbaycan ermənilərə Laçın dəhlizi kimi mühüm əhəmiyyət kəsb edən bir arteriya verdi. Lakin ermənilər bu yoldan ancaq silah-sursatın, qanunsuz hərbi birləşmələrin, minaların daşınması üçün istifadə etdilər.

Arzu Nağıyev deyib ki, bu əməllərin qarşısını almaq istiqamətində Azərbaycan Ordusu tərəfindən bir sıra əməliyyatlar keçirilib. Buna baxmayaraq, ermənilər alternativ olaraq quru yolla digər ərazilərdən keçməklə müxtəlif istiqamətlər axtarmağa başlayıblar. "Digər məqamlardan biri odur ki, bir neçə gün əvvəl Ermənistan tərəfi bu yolun başlanğıcında özlərinin nəzarət-buraxılış məntəqəsini yaratmaqla, şərti sərhəd olan yerdə post qurmağa cəhd etdi. Onların da bir neçə məqsədi var idi. Bu, xüsusən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olduqlarını bir daha göstərmək idi. Təbii ki, nə delimitasiya, nə də demarkasiya olmamış ərazilərdə hansısa sərhədin birləşdirilməsi məsələsi absurddur. Bunu etməklə ermənilər həm də KTMT-nin marağını cəlb etməyə çalışırdılar. Eyni zamanda Qarabağ separatçılarına gedən yola nəzarəti ələ keçirmək istəyirdilər", - deyə Arzu Nağıyev əlavə edib.

Bunun qarşısının cidd-cəhdlə alındığını vurğulayan deputat bildirib ki, Azərbaycan artıq öz sərhəd-keçid məntəqəsini qurub və buradan silah-sursatın daşınmasının qarşısını almaq iqtidarındadır. Ermənilərin etdiyi hərəkətlər nəyin bahasına olursa-olsun, sülh müqaviləsinin imzalanmamasına, delimitasiya və demarkasiyaya getməməkdir. Ermənistan rəhbərliyi dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirsə də, öz əməllərində bunun əksini nümayiş etdirib.

"Bundan sonra Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, ermənilər Azərbaycan bayrağı altında və Azərbaycan Konstitusiyasına uyğun olaraq vətəndaşlığımızı qəbul edib ərazimizdə yaşayacaqsa, onlar bu yoldan maneəsiz hərəkət edəcəklər. Kimsə hər hansı bir cinayət əməli törədərsə, mütləq şəkildə cavab verməli və ərazini tərk etməlidir. Yəni bu, Qarabağa gələn yollardan qanunsuz istifadənin qarşısını almaq deməkdir".

Deputat vurğulayıb ki, nəzarət-buraxılış məntəqəsinin açılması tarixi hadisədir. Bu məntəqənin qurulması haqqında Rusiya sülhməramlı qüvvələri, eyni zamanda Türkiyə-Rusiya Monitorinq Mərkəzi də məlumatlandırılıb.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 26 aprel.- S. 11.